*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 1*
*Səhifə: 6-14* *ISSN: 2663-4406*

**Azərbaycan ədəbiyyatı**

**UOT:** 821.512.162(091)

Əlizadə Əsgərlı

# "AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ"NƏ BAXIŞ

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi, yeni elmi konsepsiya, İsa Həbibbəyli
**Key words:** periodization of history of the Azerbaijani literature, new scientific concept, Isa Habibbeyli
**Ключевые слова:** периодизация истории азербайджанской литературы, новая научная концепция, Иса Габиббейли

Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində milli-mədəni irsin yenidən öyrənilməsi, təbliği və nəşri sahəsində vəzifələr göstərilmiş, Azərbaycan ədəbiyyatı tarixi oncildliyinin akademik nəşri qərara alınmışdır. Bu baxımdan Azərbaycan ədəbiyyatı tarixinin elmi-nəzəri və ədəbi-metodoloji təcrübəsi ümumiləşdirilmiş və aktual problemlərin prioritet istiqamətləri müəyyənləşdirilmişdir.

Hazırda aktual vəzifə Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi, onun elmi-nəzəri prinsipləri və metodologiyası ilə bağlıdır. Bu məqsədlə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda problemin elmi-təşkilati və nəzəri-metodoloji əsasları, vahid ədəbi konsepsiya hazırlanmış, elm və tədris sahəsində praktikaya tətbiqi nəzərdə tutulmuşdur.

Akademik İsa Həbibbəylinin "Poetika.izm" jurnalında [1] (Bakı, "Elm və təhsil", 2017, № 3, s.3-18) "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatı" adlı məqaləsi çap olunmuşdur. Beləliklə, alim elmi-ədəbi ictimaiyyətə Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin yeni konsepsiyasını təqdim etmişdir. O, Azərbaycan ədəbiyyatının elmi-nəzəri cəhətdən dövrləşdirilməsinin zərurətini milli dövlət müstəqilliyinin nəticəsi hesab edir. Bildirir ki, Sovet dövrünün prinsipləri əsasında ədəbiyyatın dövrlər üzrə ideoloji olaraq tədqiq və təhlili tənqidə məruz qalmışdı. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsində klassik format hələ də elmi dövriyyədən çıxmamışdır. Alim göstərir ki, Azərbaycan ədəbiyyatı tarixinin 7 cildliyindəki (2004-2011) icmallar və portret-oçerklər azərbaycançılıq məfkurəsin anmış, bəşəri dəyərlərə istinad etmişdir. Çap olunmuş 4 cilddə xüsusi dövrləşdirmə aparılma çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixi əsrlər üzrə mərhələlərə ayrılaraq müəyyən elmi-nəzəri təhlil əsasında təqdim olunmuşdur" [1, s.3]. İsa Həbibbəyli çap edilmiş 4 cildin Azərbaycan şifahi xalq ədəbiyyatı (I c.) [2], ən qədim dövr (II c.) [3], yazılı ədəbiyyatın yaranmasından XIII əsrə qədərki dövr – qədim dövrün (III c.) [4] və yeni dövrün – XIX əsrin (IV c.) [5] mövcud elmi mənzərəsini göstərir və hesab edir ki, "Azərbaycan ədəbiyyatı tarixi müstəqillik dövründə yaranan, bəşəri dəyərləri də nəzərə almaqla milli ədəbiyyatın real inkişaf prosesinin əsasında yazılan akademik ədəbiyyat tarixidir" [1, s.4].

Akademik İsa Həbibbəyli qeyd edir ki, professor Yaşar Qarayev [6] və professor Bədirxan Əhmədovun [7] ədəbiyyat tarixinə aid kitablarında dövrləşmə məsələsi xüsusi məqsəd olmasa da, onların "XIX əsr və XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı tarixi mərhələlərinin geniş və obyektiv elmi qiyməti verilmişdir" [1, s.4]. Alim qiymətləndirir ki, "Azərbaycan ədəbiyyatı tarixinin XIX əsr və XX əsrin əvvəlləri mərhələlərinin müəyyənləşdirilməsində və həmin dövrlərin ədəbi-tarixi proseslərinin obyektiv izahında bu nəşrlər əhəmiyyətli mənbələrdir" [1, s.4].

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Direktor müavini. Filologiya elmləri doktoru.
E-mail: alizade.asgerli@gmail.com



İsa Həbibbəyli professor Baloğlan Şəfizadə [8] və professor Elməddin Əlibəyzadənin [9] "Azərbaycan ədəbiyyatı tarixi" kitablarını ədəbiyyat tarixinin qədim dövrlərinə işıq salan, az öyrənilmiş ən böyük tarixi mərhələni əsaslı və dərin tədqiqatlarla zənginləşdirən əsərlər kimi yüksək qiymətləndirir: "Bu tədqiqatlar Azərbaycan ədəbiyyatı tarixinin qədim dövrünün hüdudlarını müəyyən etmək və mahiyyətini açmaq baxımından özünəməxsus mühüm əhəmiyyətə malikdir" [1, s.4-5]. BDU-nun 2 cildlik "Müasir Azərbaycan ədəbiyyatı" dərsliyinin [10] "Milli ədəbiyyatın dövrlər üzrə verilməsində obyektiv meyarlardan, ədəbi-tarixi proseslərin reallıqlarından çıxış etmək meylini təqdir edir və ilk dəfə (Sovet dövrü ədəbiyyatı istilahını işlətdiyini) Azərbaycan Sovet ədəbiyyatının "Sovet dövrü ədəbiyyatı" kimi təqdim olunmasını əhəmiyyətli sayır. O, dəyərləndirir ki, "ədəbiyyatın tam olaraq ideologiyaya tabe etdirmədən dəyərləndirilməsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq elminin obyektiv elmi-nəzəri baxışlarından doğan real qiymətləndirmə hesab oluna bilər" [1, s.5]. İsa Həbibbəyli Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı"na [11] da elmi-metodoloji dəyər verir. Hesab edir ki, 2 cildlik "Həm nəzərdə tutulan tarixi mərhələni bütün yönləri ilə əhatə etmək baxımından, həm də ədəbiyyat tarixinin bu mərhələsi dövrləşmədə malik olduğu mahiyyəti dəqiq ifadə etmək cəhətdən mühüm əhəmiyyətə malikdir" [1, s.5]. 1990-2000 və 2001-ci ildən üzü bəri müstəqil milli ədəbiyyatımızı böyük zəhmətin, ciddi elmi araşdırmaların nəticəsi hesab edən akademik İsa Həbibbəyli yazır ki, "Azərbaycançılıq, ümummilli oyanışa xidmət, milli qurtuluş ideyalarının bədii ifadəsi, yeni insanın obrazının yaradılması, ədəbiyyatda ölkənin qayğılarının və gələcəyinin təsvir və tərənnümü müstəqillik dövrü ədəbiyyatının ideya əsasını təşkil edir" [1, s.5].

Görkəmli alim professor Vəli Osmanlı [12], professor Alxan Bayramoğlu [13], professor Təyyar Salamoğlu [14] və professor M.Ağayevanın [15] dərslik və tədqiqat kitablarını da əhəmiyyətli elmi nəşrlər hesab edir, bildirir ki, "uzun dövr ərzində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi üzrə müəyyən elmi təşəbbüslər və çağırışlar meydana çıxmışdır" [1, s.7]. Alim bu baxımdan "AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayevin XXI əsrin başlanğıcında irəli sürdüyü fikirləri Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi probleminin aktuallığını ifadə edən obyektiv çağırışlar" kimi yüksək qiymətləndirir. Göstərir ki, Azərbaycan ədəbiyyatı tarixçiliyinə sistemli elmi münasibət müstəqillik dövründə, XX əsrin 90-cı illərindən başlamışdır. Akademik əsaslı bilir ki, "XIX əsrin ərəfəsində milli bədii təfəkkürü həm növbəti epoxaya aparmaq, həm də müstəqillik mərhələsinin məsuliyyətli vəzifələrini həyata keçirmək üçün səfərbər etməli olan ədəbiyyatşünaslıq elmi mümkün olan bütün resurslardan istifadə etmək mənasında mövcud dayanıqlı ənənələrin enerjisini də prosesə cəlb etmək üçün "dövrləşmə" məsələsinə yenidən və bu dəfə əsaslı şəkildə qayıtmalı olmuşdur" [1, s.7]. İsa Həbibbəyli Sovet dövrünün 70-80-ci illərini milli mənafe, "Azərbaycanda aparılan dövlət siyasətinin ölkə maraqları və milli mənafelər üstündə köklənməsi ədəbiyyat haqqında elmin də ideoloji maneələri aşaraq, davamlı ənənələrin yaşadılmasına, problemin ümumdünya ədəbi-mədəni prosesləri səviyyəsində qiymətləndirilməsinə və milli maraqların ön mövqeyə çəkilməsinə geniş zəmin hazırlamışdır" [1, s.7]. Mövcud mərhələni bütün sahələr üzrə möhkəm təməllər hesab edən akademik qeyd edir ki, "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələsinə yenidən qayıdış da o illərin mədəni-mənəvi intibahının hazırladığı prosesdir" [1, s.7].

İ.Həbibbəyli *XX əsrin 90-cı illərini* Azərbaycan ədəbiyyatı tarixini yenidən formalaşdırmaq üçün *konsepsiya axtarışları dövrü* hesab edir. O, bu istiqamətdə professor Nazif Qəhrəmanlının "Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf və dövrləşdirmə problemləri" [16] monoqrafiyasını yüksək qiymətləndirir. Müəllif yazır ki, bu monoqrafiya "Azərbaycan ədəbiyyatşünaslığında milli ədəbiyyat tarixçiliyi ənənələrinə və müstəqillik dövrünün bu istiqamətdəki vəzifələrinə konseptual elmi-nəzəri baxışları əks etdirən ilk ümumiləşmiş tədqiqat əsəri kimi mühüm əhəmiyyət kəsb edir. Bu, ümumiyyətlə, Azərbaycan ədəbiyyatşünaslıq elmində milli ədəbiyyat tarixçiliyi probleminə həsr olunmuş birinci monoqrafik tədqiqatdır" [1, s.8]. İsa Həbibbəyli Nazif Qəhrəmanlının belə bir

tezisini də xüsusi vurğulayır ki, o, Azərbaycan ədəbiyyatı tarixi və nəşrlərinin konsepsiyasını sırf tarixi konsepsiya hesab edir və onun meyar və ölçülərini tarixşünaslıqla bağlayır. Halbuki, "Ədəbiyyat tarixinə dair ədəbi-tarixi və ideya-estetik özüllər üzərində müstəqil konsepsiya qurulmalıdır" [1, s.8]. Alim professor N.Qəhrəmanlının təqdim etdiyi 7 model üzərində dayanır, onun problemə Qərb mövqeyindən yanaşdığını, Ümumşərq poetikası ilə əlaqədar diqqət yetirdiyini bildirir, halbuki, "milli ədəbiyyat tarixçiliyi" konsepsiyasında ümumdünya meyarları ilə müqayisədə milli maraqlar və ədəbi-tarixi reallıqlar daha üstün mövqedə olmalıdır" [1, s.8]. İ.Həbibbəyli hesab edir ki, N.Qəhrəmanlı ədəbi dövrləşdirmə məsələsində daha çox ümumi metodoloji prinsiplərə və tarixilik aspektinə istinad etmiş, müasir reallıqları ifadə edə bilməmiş, yekun qənaəti olan konkret model üzərində dayanmamışdır. Akademik fikrini belə yekunlaşdırır: "Nazif Qəhrəmanlının "Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf və dövrləşdirmə problemləri" monoqrafiyası ədəbiyyat tarixi anlayışının nəzəriyyəsinə, bu sahədə Azərbaycan təcrübəsinin şərhinə və perspektivlərinə, dövrləşmə konsepsiyasının zəruriliyinə həsr olunmuş qiymətli elmi mənbədir" [1, s.9].

Nüfuzlu alim akademik N.Cəfərovun [17] irəli sürdüyü elmi konsepsiyanı da işin nəzəri əsasları, ədəbi-estetik, etnik-kulturoloji və ictimai-siyasi meyarları, konkret ədəbi dövrləşdirmə modeli müəyyənləşdirmək baxımından əhəmiyyətli hesab edir. O, Nizami Cəfərovun dövrləşdirməsində ideoloji baxışları deyil, onun ədəbi-estetik meyarları, nəticə etibarilə azərbaycançılıq dəyərlərini əsas tutduğunu üstün cəhət kimi qiymətləndirir.

İsa Həbibbəyli Nizami Cəfərovun orta əsrlər Azərbaycan ədəbiyyatının sərhədlərini XIII-XVI əsrləri göstərdiyini, XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafı tarixindəki fərqli yerini xüsusi qeyd edir. O yekunlaşdırır ki, əgər Nazif Qəhrəmanlı ədəbi dövrləşdirmə zərurətini elmi ideya olaraq irəli sürmüşdürsə, onu elmi-nəzəri cəhətdən əsaslandırmışdırsa, Nizami Cəfərov ədəbi dövrləşdirmənin konkret versiyasını formalaşdırmışdır.

Akademik İsa Həbibbəyli *1990-2000-ci illəri Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi sahəsində konsepsiya axtarışlarının inkişaf göstəricisi* kimi dəyərləndirir. O, Zaman və ədəbiyyat məsələlərinə ümumi diqqət yetirmiş, bildirmişdir ki, Zaman ədəbi prosesin inkişaf etməsində mühüm rol oynadığı kimi, ədəbiyyat da zamanın aparıcı ideallarını formalaşdırmaq və ictimai fikri həmin ideallar uğrunda mübarizəyə doğru yönləndirmək baxımından mühüm əhəmiyyət kəsb etmişdir. İsa Həbibbəyli yazır: "Zamanın ictimai-siyasi xarakteri və ayrı-ayrı epoxalarda baş vermiş böyük tarixi-mədəni hadisələr ədəbi cərəyanları, mövzuları, janrları, üslubları, hətta qəhrəmanları meydana çıxarmışdır... Hər yeni zaman özünün yeni ədəbi axınlarını və ədəbiyyatını yaratmışdır... Böyük ədəbiyyat da öz növbəsində Zamanın yeniləşməsi, inkişafı və dəyişməsinə təkan vermişdir" [1, s.11].

İsa Həbibbəyli vurğulayır ki, zaman anlayışı obyektiv ictimai-tarixi reallıqlara görə yox, ideoloji cəhətdən diqqətə çəkilmiş, Sovet dövrünün ədəbi dövrləşdirilməsi marksizm təliminə uyğunlaşdırılmışdır. Ədəbiyyatın formasiyalar üzrə dövrləşdirilməsi isə Azərbaycan ədəbiyyatının təcrübəsində heç də hər zaman obyektiv reallığı ifadə edə bilməmişdir. Bu mənada marksist təlim Azərbaycanın ədəbi-mədəni proseslərinin dialektikası üçün həmişə uyğun gəlmədiyindən təbii maneələr yaranmışdır. Bu ciddi səbəb də "Azərbaycanda çoxəsrlik ədəbiyyat tarixinin dövrləşdirilməsi probleminə yenidən qayıtmaq zərurətini elmi fikrin gündəminə gətirmişdir" [1, s.12]. "Ona görə də müstəqillik illərində Zamana və ədəbiyyata obyektiv ədəbi-tarixi baxış Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi üçün yeni konsepsiyanın müəyyən olunmasını tələb edir" [1, s.12].

Akademik İsa Həbibbəyli yeni ədəbi dövrləşdirmənin elmi konsepsiyasının əsaslarını belə görür:

1. Azərbaycan ədəbiyyatı tarixinin keçmiş Sovet ideologiyası əsasında aparılmış dövrləşməsinin ədəbi-tarixi proseslərin reallıqlarını əks etdirməməsi, müstəqillik dövrünün prinsiplərinə, milli məfkurəyə uyğun gəlməməsi;





2. Ayrı-ayrı müəlliflərin və ya müəlliflər kollektivinin yazıb nəşr etdirdikləri Azərbaycan ədəbiyyatı tarixinə dair akademik nəşrlərdə, dərsliklərdə, monoqrafik tədqiqatlarda dövrləşdirilmədə keçmişdə müəyyən edilmiş mərhələlərdən uzaqlaşa bilməmək hallarının aşkar nəzərə çarpması;

3. Dövrləşmə meyarlarında və mərhələlərin müəyyən olunmasında pərakəndəliyin müşahidə olunması;

4. Dövlət müstəqilliyi ideallarının işığında Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin vahid sisteminin yaradılması zərurətinin meydana çıxması;

5. Dövrləşdirmədə dünyada gedən ədəbi-tarixi proseslərin nəzərə alınması zərurəti.

İsa Həbibbəyli hesab edir ki, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq elmində çoxəsrlik ədəbiyyat tariximiz və müasir ədəbi proses dövrləşdirilərkən ilk növbədə təsnifat üçün elmi prinsiplərin, nəzəri konsepsiyaların müəyyən edilməsi ən mühüm şərtdir" [1, s.13]. Akademik ədəbi dövrləşdirmədə aşağıdakı prinsipləri əsaslı bilir:

1. Azərbaycançılıq məfkurəsi;
2. Sivilizasiya faktoru;
3. Ədəbi-tarixi prosesin reallıqları;
4. Azərbaycanda ədəbi cərəyanlar.

Akademik bu vacib prinsiplərə əsaslanarkən Azərbaycanda türk sivilizasiyası, ərəb-islam sivilizasiyalarının ictimai-siyasi və ədəbi-mədəni mühitə təsirini diqqətdə saxlayır və tezisləşdirir ki, "Türk sivilizasiyasının tanrıçılıq təlimi, islam sivilizasiyasının mənəvi kamillik ideyası müxtəlif dövrlərin böyük ədəbiyyatı və mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır" [1, s.14].

Konsepsiya müəllifi milli maarifçilik hərəkatının sosial-ədəbi mühitə təsirini də vacib bilir. Alim yazır: "Uzun illər Şərq-müsəlman dünyagörüşü istiqamətində köklənmiş Azərbaycan ədəbi-ictimai fikrinin XIX əsrdə Qərbyönlü inkişaf yoluna keçməsi və bu zəmində ölkədə dünyəvi məktəblərin, teatrın, milli mətbuatın və realist ədəbiyyatın yaranıb yüksələn xətlə qaçılmaz şəkildə yolunu davam etdirməsi maarifçilik hərəkatının regionda mühüm sivilizasiya faktoru olduğunu qəbul etməyə əsas verir" [1, s.14].

Nüfuzlu ictimai xadim azərbaycançılıq ideologiyası üzərində dayanaraq tezisləşdirir ki, "Azərbaycançılıq – milli düşüncənin və vətən anlayışının bir yerdə qavranılması təlim olaraq xalqın və ölkənin milli maraqlarını, maarifçilikdən milli azadlıq ideyalarına, istiqlal mübarizəsi düşüncəsinə, dövlət müstəqilliyi şüuruna qədərki bütün ideallarının ədəbiyyatın canında və qanında olmasını qaçılmaz həyati tələbat səviyyəsinə qaldıran ümummilli məfkurədir" [1, s.14-15].

Görkəmli alim müasir dövrləşdirmə konsepsiyasında başlıca meyarları milli ədəbiyyatın ictimai-mədəni və ədəbi-tarixi proseslərinin reallıqları, keçilmiş inkişaf yolunun özünəməxsusluqlarını obyektiv əks etdirmək baxımından faydalı hesab edir. Alim "ədəbi-tarixi proseslərin reallıqları dedikdə, Azərbaycan ədəbiyyatının təbii məntiqindən, daxili təkamülündən doğan sənət idealları ilə xalqın müxtəlif dövrlərdəki ümummilli ideallarının dialektik əlaqəsi, sintezi və vəhdətini nəzərdə tutur" [1, s.15]. O ümumiləşdirir ki, göstərilən "prinsiplər Azərbaycan ictimai-mədəni fikrinin və ədəbiyyatının əsrlər boyu keçdiyi inkişaf yolunun ana xətlərini və başlıca məzmununu, əsas inkişaf istiqamətlərini özündə əks etdirir. Burada hər hansı bir kənar ideologiyanın diqtəsi ilə təklif olunan meyillər özünə yer almamışdır" [1, s.15].

Akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələlərini "ümumdünya ədəbi proseslərinin gedişatı müstəvisində Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində milli ədəbiyyatın keçdiyi təkamül proseslərinin daxili inkişaf qanunauyğunluğundan, təbii məntiqindən doğan elmi təsnifat" hesab edir və ***dövrləşdirmə modelini*** aşağıdakı kimi göstərir:

1. Qədim dövr Azərbaycan ədəbiyyatı: etnosdan-eposadək;
2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər);
3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər);
4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər);
5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər);

6. Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr);
7. Azərbaycan ədəbiyyatında tənqidi realizm epoxası və romantizm dövrü (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda Sovet hakimiyyətinədək);
8. Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsi (1920-1970-ci illər);
9. Milli özünüdərkə qayıdış və istiqlal uğrunda mübarizə dövrü (1970-1991);
10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı.

Alim bir tezis də verir ki, "dövrləşdirmənin müəyyən olunmasında konkret mərhələlər arasında davam edən proseslərlə, varisliklə yanaşı, köklü mühüm yeniləşmələrin, dəyişikliklərin baş verməsi də əsas götürülmüşdür" [1, s.16].

Akademik ədəbi dövrləşdirmə təsnifatının bütün mərhələləri üçün kifayət qədər konkret, aydın və elmi-nəzəri izahlar vermiş, tezislərini bütün hallarda özəl təqdim etmiş və yekunlaşdırmışdır ki, "təqdim olunan Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi modeli çoxəsrlik Azərbaycan ədəbiyyatının milli maraqlara və dünyəvi dəyərlərə uyğun səviyyədə, sistemli tədqiq edilib öyrənilməsinə imkan yaradır" [1, s.18].

Görkəmli ədəbiyyatşünas-alim Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi problemi ilə bağlı AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 6 oktyabr 2017-ci il tarixli Elmi Şurasında əhatəli tezisləri, izah və şərhləri ilə birlikdə geniş məruzə etmiş, irəli sürülən təklifləri dinləmiş və bildirmişdir ki, problemlə bağlı 180 səhifəlik monoqrafiyanı çapa hazırlamışdır.

Beləliklə, akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsində mövcud elmi-nəzəri fikrin varisliyinə əsaslanan konsepsiyası Azərbaycan ədəbiyyatı tarixi oncildliyinin akademik nəşrləri üçün vacib proqramdır, Azərbaycan ədəbiyyatı tarixi, habelə, türk xalqları ədəbiyyatı tarixinin dövrləşdirilməsi problemlərinin həllində normativ aktdır, elm və tədris məsələlərinin praktik həllində yönləndirici, əsaslı tarixi-ədəbi sənəddir.

Oncildlik Azərbaycan ədəbiyyatı tarixinin birinci nəşri [18] ədəbi dövrləşdirilmə konsepsiyasında sivilizasiya, ədəbi-tarixi proseslərin reallıqları, ədəbi cərəyanlar, maarifçilik hərəkatı, milli ədəbiyyat tarixçiliyinin inkişaf qanunauyğunluqları, habelə, azərbaycançılıq məfkurəsinə uyğun olaraq şifahi xalq ədəbiyyatından başlanmışdır. Azərbaycan ədəbiyyatının tarixi tarixilik prinsipinə uyğun olaraq folklordan başlamış və bu mənəvi irs kifayət qədər zəngin olmuşdur. Bu baxımdan müstəqillik dövründə çoxcildlik milli ədəbiyyat tarixinin bütün aspektləri ilə nəşrə hazırlanması imkan verir ki, şifahi xalq ədəbiyyatına daha geniş yer verilsin.

*Şifahi xalq ədəbiyyatı* eramızdan əvvəl mövcud olan obrazlı təfəkkürdən, xalqın mifik yaddaşından, epos müəyyənliyindən başlamış, mövcud bədii-estetik və ədəbi-tarixi yaradıcılığı özündə ehtiva etmişdir.

Birinci cilddə Azərbaycan şifahi xalq ədəbiyyatının təsnifat prinsipləri, onun növ və janr tipologiyası, mövzu, ideya-məzmun və süjet-kompozisiya xüsusiyyətləri, eləcə də, toplanması, tədqiqi və nəşri məsələsi, habelə, ədəbi-tarixi əhəmiyyəti göstərilmişdir. Azərbaycan ədəbiyyatı tarixinin birinci cildində xalqın tarixi-etnoqrafik yaşayış tərzi, onun bədii-estetik, əxlaqi-fəlsəfi və mənəvi-psixoloji fikir aləmi, poetik təfəkkür və idrakının (hissi və məntiqi) şüur yanğısı və bədii düşüncə enerjisinin hüdudsuz potensialı ümumiləşdirilmişdir.

Azərbaycan şifahi xalq ədəbiyyatı təbii ki, təşəkkül dövrünü ümumtürk məcrasında, mifoloji müəyyənlikdə təhazür etdirmişdir. *Mifologiya* – bəşər tarixinin ilkin şüur qatı, obrazlı təfəkkür fəaliyyətinin nəticəsidir. Bu baxımdan kitabda şifahi yaradıcılığın ən qədim çağlardakı pərakəndə vəziyyətinə bərpaedici yanaşma, mifin mahiyyəti, yaranma-törəmə funksiyaları, onun folklorla oxşar və fərqli xüsusiyyətləri, elm, fəlsəfə və dinlə kəsişən məqamları, vahid mifoloji modelin bərpasında mifşünaslığın qarşısında duran vəzifələr ifadəsini tapmışdır.

Vahid mifoloji dünya modelinə yaxınlaşmada milli-mifoloji özüllər protodil dövründən formalaşmağa başlamış, ilk tarixi mərhələlərdə sistemləşdirilmiş və klassik etnonimlərlə adlandırılmışdır: məsələn, ümumtürk mifologiyası, german mifologiyası, slavyan mifologiyası və sair. Bütün bunların etnodil, ümumi qanunauyğunluq cəhətdən təsbit edilməsi, semantik məzmun qatlarının aşkarlanması və bütöv tərkib hissəsinin müəyyənləşdirilməsi düzgün elmi metod üçün vacib vəzifədir.





Bu baxımdan birinci cilddə ümumtürk mifologiyasının şifahi və yazılı qaynaqlarının əski çağlarla, arxeoloji və etnoqrafik materiallarla bağlılığı diqqətdə saxlanılmışdır. Türk mifologiyasının təməl və məzmununda monoteizm, *tanrıçılıq dünyagörüşü* dayanır. Göstərilir ki, türklərin ilk inancları öz reallıqlarını qayaüstü rəsmlərdən, şumer dönəmlərindən, mixi yazı və arxeoloji-etnoqrafik mənbələrdən almış, universal dini-mifoloji sistem olmuşdur.

*Tanrıçılıq* (kainatın ilkin, universal başlanğıcı) türk mifologiyasının mahiyyət və strukturunda dayanır. Bu baxımdan o, ümumtürk mifologiyasının maddi və mənəvi mədəniyyətinin bütün sahələri ilə yaxından bağlıdır.

Mifologiya folkloru genetik, semantik və struktur cəhətdən öz içinə alır. Folklorla bağlı olduğu mətnlərdə mifologiyanın dərin izləri vardır.

Folklor janrları mifoloji köklərə malikdir. Bunlar dünya mifoloji modelinin bərpası üçün zəngin qaynaq verir. Bütün mifoloji mətnlər (ümumtürk mətnləri) tipoloji baxımdan kosmoqonik (Tanrı, yeraltı dünya, yer üzü, göy), etnoqonik (genealoji, insanın və xalqların yaranması) və təqvim (zamanın vahidlərə bölgüsü) mifləri əhatə edir ki, bütün bunların zəminində türk-Azərbaycan mifologiyasının da qaynaqları vardır. Kitabda bu barədə əhatəli biliklər verilmişdir.

Birinci cilddə *arxaik folklor janrlarından*: sınamalar, ovsunlar, fallar, andlar və duaların mahiyyəti, struktur xüsusiyyətləri, onların mifoloji-estetik, fəlsəfi-psixoloji keyfiyyətləri nümunələr əsasında izah və şərhini tapmış, bütün bunlar mifik qavrayışlarla bağlı olmuşdur.

Kitabda *mərasim folklorunun* janrları, onların səciyyəvi xüsusiyyətləri geniş təhlil olunmuş, Azərbaycan folklor janrlarının tərkib hissəsi kimi qiymətini almışdır.

Birinci cilddə *əmək nəğmələri* (ovçuluq, əkinçilik və maldarlıq mərasimləri), bayatılar (mənşəyi, janr təsnifatı, poetik xüsusiyyətləri, dil və üslubu), əfsanələr, rəvayətlər, nağıllar, lətifələr, atalar sözləri və məsəllər, tapmacalar, xalq dramları və meydan tamaşalarına xüsusi yer verilmişdir ki, bunlar da lirik, epik və dramatik növlərin janrları kimi səciyyələndirilmişdir. Bu janrların məna və mahiyyəti, bədii strukturu, mövzu, ideya-məzmun və üslub xüsusiyyətləri, onların toplanması, tədqiqi və nəşri haqqında geniş informasiya verilmiş, ədəbi-metodoloji əsasları və ideoloji-mənəvi əhəmiyyəti göstərilmişdir.

*Əfsanələr* həm yazılı mənbələr, salnamə, xronika, cüng və əlyazma vasitəsilə, həm də şifahi surətdə yaddaşlarda dolaşaraq günümüzə gəlib çatmışdır. Cilddəki məqalədə onların bitkilər, quşlar və heyvanların insan cizgilərilə səciyyələndirilmiş əlamətlərinə (kosmoqonik əfsanələr) diqqət yetirilmişdir. Dini əfsanələr də çoxdur ki, onların bir qismi Qurani-Kərimdə, habelə, başqa dini kitablarda təzahür etmişdir.

*Rəvayətlərdə* (etimologiyası, mövzusu, süjet və quruluşu, toplanması və nəşri, habelə, təsnifatına (etimoloji, izahlı, tarixi xüsusiyyətlərlə bağlı rəvayətlər) görə konkret səciyyəsini almışdır.

Oncildliyin birinci nəşrində epik forma kimi *nağıl* janrına da geniş yer ayrılmışdır. Nağıllarda xalq həyatı, tarixi və məişəti ilə bağlı adət-ənənə və etiqadlar dərin ifadəsini tapmışdır. Onun təsnifat prinsipləri (sehrli, heyvanlar və məişətlə bağlı), geniş mövzu, ideya-məzmun xüsusiyyətləri, təsvir-ifadə vasitələri ətraflı təhlillərini almışdır.

Həssas yumor, hikmətli fikir, güclü ironiya ilə fərqlənən *xalq lətifələri* məzmun və formasına görə fərqlənir. Kitabda onların mənşəyi, formalaşma yolları, növləri, toplanması, yazıya alınması, tədqiqi, nəşri və inkişaf mərhələləri ifadəsini tapmışdır.

Epik folklor janrlarının nümunəsi kimi *tapmacalar* əşya və hadisənin metaforik yolla ifadəsində düşündürücü sualların yaranması, vacib əlamət və keyfiyyətlərin göstərilməsi, zehni qabiliyyət, fəhm və təxəyyülün üzə çıxarılmasına şərait, uşaqların zehni düşüncə inkişafına kömək etmək baxımından təfəkkür fəallığı ilə seçilmişdir. Bayatı-bağlama, qıfılbənd və müəmma kimi janrlar tapmacaların poetik və struktur zəmini əsasında yaranmışdır.

Birinci cildə lirik və epik növün janrları ilə bərabər, dramatik növün də janrları daxil edilmişdir. Bu baxımdan xalq dramları və meydan tamaşalarının təşəkkül və təkamül xüsusiyyətləri, onların tədqiqi və nəşri məsələləri yazılmış oçerklərin özülünü təşkil edir.

*Xalq dramı* tamaşaya qoyulmaq, xalq teatrında oynanılmaq məqsədilə yaradılmış folklor nümunəsidir, «məzhəkələrdən, nağıl, dastan, qaravəlli, lətifə və rəvayətlər əsasında yaradılan pyeslərdən, sosial və məişət dramlarından, eləcə də dini məzmunlu faciələrdən ibarətdir». Xalq teatrları xalq dramının mövzu və forma-məzmun xüsusiyyətlərinin zənginləşdirilməsinə təsir etmişdir. Xalq dramları satirik məzmuna, komik situasiyaya malikdir. Onun bədii əsasları xalq teatrının tarixi köklərinə bağlıdır. Xalq dramının ilk rüşeymləri təbiətin oyanması, yeni ilin başlanması, toy, ailə həyatının yaranması, doğum və ölüm günlərinə bağlı olmuş, əfsanə və rəvayətlər onu canlandırmışdır.

Xalq dramının təşəkkülü ov və ev heyvanlarının şəklini (onların dərisinə bürünmə, cildə girmə) alıb oyun göstərməklə başlanmışdır ki, bu da müstəqil ifa edilən ovçu, maldar, əkinçi, toxucu rəqslərinə aid olmuş, əmək prosesindən ayrılmış şəkildə icra edilmişdir.

Birinci cilddə janrın təşəkkülü, inkişaf mərhələləri, onun mövzu, ideya-məzmun və janr xüsusiyyətləri, toplanması, nəşri və təbliği, nağıl, dastan, qaravəlli və lətifə əsasında yaranan dramlar (kilimarası, alleqorik nağıllar, qaravəlli tamaşaları, qəhrəmanlıq, vətənpərvərlik və məhəbbət mövzuları); dini-tarixi motivli faciələr, yuğ-şəbihlər, ailə-məişət dramları – bütün bunlar akademik nəşrdə əhatəli ifadəsini tapmışdır. *Meydan tamaşaları* da nəşrdə (adamları asudə vaxtlarda, bayramlarda, mərasimlərdə əyləndirmək məqsədi) bütün etnoqrafik cizgilərilə şərh olunmuşdur.

*Uşaq folkloru* şifahi xalq ədəbiyyatının böyüklər və uşaqlar tərəfindən yaradılmış nümunələr olub, uşaqların məişətini, oyunlarını, əyləncələrini, istirahətini, məşğuliyyətini, arzu və təkliflərini özündə əks etdirir. Uşaq folkloru nağıl, tapmaca, layla və oxşamalar, habelə, dolamalar, acıtmalar, öcəşmələr və oyun nəğmələri baxımından cilalanmışdır. Dünyaya övlad gətirmək, ona ad vermək, körpənin dişinin çıxması, dilinin açılması, yeriməsi ilə bağlı mərasimlər keçirilmişdir ki, bu zaman tilsim, əfsun və dualardan geniş istifadə olunmuşdur.

Uşaq folklorunun təşəkkülü ilkin etiqad və təsəvvürlərlə bağlı olmuş, ovçuluq, əkinçilik, maldarlaq və toxuculuq peşələrinin sirlərini öyrənmək ehtiyacı ilə yaranmışdır. Uşaq folklorunun əmələgəlmə yolları üç istiqamətdə: böyüklərin uşaqlar üçün xüsusi folklor nümunələri düzüb-qoşmaları, yamsılama, təqlid yolu ilə uşaqların yaradıcılıq qabiliyyətinin formalaşması ilə bağlı olmuşdur. Uşaq folkloru uşaqların yaş səviyyəsinin göstəricisidir. Cilddə uşaq folklorunun təşəkkülü, inkişaf istiqamətləri ilə bərabər, onun janr formaları da göstərilmişdir (layla, oxşama, dilaçma, öyrətmə, uşaq nəğmələri, tapmaca, yanıltmac, uşaq nağılları, uşaq oyun və tamaşaları).

Akademik nəşrdə özünə yer almış əhəmiyyətli mövzulardan biri də Qam-şamançılıqla bağlıdır. «Qam-şaman kompleksi» məqaləsində deyilir: «Musiqi-söz-rəqs magiyasının əsas ifaçı və təmsilçisi olan Qam-şaman qəbilənin müşkülünü həll edən, dolaşığa düşmüş, çətin işini asana çevirən, gələcəkdən xəbər verən, mənsub olduğu ocağı (etnosu) bəd ruhlardan, qorxu və bəlalardan qoruyan, şadlıq yığıncağını təşkil edən, xəstələrə şəfa verən bilici – yol göstərici, idarəedici ruhani xadim idi». Məqalədə şamançılığın təşəkkülü, onun yayılma coğrafiyası və çağdaş vəziyyəti izah və şərhini tapmışdır. «Qam-şaman hadisəsi geniş anlamda götürülərsə, o, mifoloji mərasimlər, ilkin-ibtidai sənətlər, arxaik etnoloji proseslər toplusunu əhatə edən, onları əlaqəli şəkildə özündə cəmləşdirən, vahid bir kompleks halına gətirən mədəni-tarixi sistemdir, etnosun başlanğıc mərhələsindəki mənəviyyat mərkəzidir».

Oncildliyin birinci nəşrinin geniş sahələrindən biri *dastan yaradıcılığını* əhatə edir. Bu baxımdan dastanın qədim çağlardan başlayaraq zəmanəmizə qədər gəlib çıxan təkamül prosesləri, onun ədəbi-tarixi mərhələləri: qədim türk eposu, oğuz-qopuz ənənələri, «Kitabi-Dədə Qorqud» dastanları və aşıq yaradıcılığının mühitləri, ustad və yaradıcı aşıqlar (Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Abdalgülablı Valeh, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli, Aşıq Hüseyn Bozalqanlı, Molla Cüma) haqqında bilgilər birinci cilddə özünə yer almış, həm dastanlar, həm də "Koroğlu" eposu barəsində geniş informasiya verilmişdir.





*Qədim türk eposu* (müxtəlif dastanlar, süjetlər, motivlər, türk qövmlərinin sosial-estetik təfəkkürünün potensiyası, mənəvi enerjisi) vahid türk qövmləri ədəbiyyatının kökündə dayanan eposu, ideya-estetik, poetexnoloji, linqvopoetik və başqa potensiyaları özündə ehtiva edir.

Oçerkdə türk eposunun mənşəyi (e.ə. əsasən, I minilliyin ortalarına qədərki dövr), onun tanrıçılıq dünyagörüşü, mifologiyasının zəmini, IX-XI yüzillər şəraitində türk etnik-kulturoloji regionlarının formalaşması, ümumtürk eposundan ayrılmaları (Sibir-Türküstan, Ural-Volqaboyu, Şərqi Avropa, Qafqaz-Kiçik Asiya), türk-etnik mədəni sistemində kosmoqonik, etnoqonik və təqvim-mövsüm süjetləri (miflər), bu sistemdə Azərbaycan mifologiyasının yeri, "Yaradılış", "Alp ər Tonqa", "Oğuz Kağan", "Ərgənəkon", "Boz Qurd", "Siyenpi", "Törəyiş" və "Köç" dastanlarının formalaşması, Oğuznamələr kimi ədəbi-tarixi qaynaqların ümumtürk kontekstində təhlili verilmişdir. Akademik nəşrdə Ozan-qopuz ənənəsi – ilkin ibtidai çağlarda ozanların ruhani, təbib, musiqiçi, ağsaqqal və məsləhətçi olmaq funksiyası, qopuzun ruhlar dünyası, ilahi aləmlə bağlı mənşəyi, magik gücü, qədim türk qopuzlarının quruluşu, tipləri və etimologiyası xarakterizə olunmuşdur.

Birinci cilddə *"Kitabi-Dədə Qorqud" dastanlarına* geniş yer verilmişdir. Epos Azərbaycan oğuznaməsi olub, dünya qəhrəmanlıq dastanlarının salnaməçilik, elmilik və tarixilik müəyyənliyini özündə ehtiva edən orta çağ türk ədəbiyyatının yeganə yazılı eposudur. Cilddə dastanın təşəkkülü, öyrənilməsi tarixi, bədiiliyi, qəhrəmanları, hər bir boyun təşəkkülü, mahiyyət və ideya-məzmunu, bədii dil və üslubu əhatəli izahını tapmışdır.

Azərbaycan ədəbiyyatı tarixinin birinci cildində *aşıq sənəti* ilkin mifik qaynaqlardan tutmuş, sonrakı inkişafına qədər təkamüldə verilmiş və qopuz-ozan sənəti ilə münasibətləri ifadə olunmuşdur. Aşıq sənəti əski çağların mifik qaynaqlarına bağlıdır. Erkən orta çağdan başlamış, yüzillərlə davam edən sosial-siyasi, fəlsəfi-irfani və mədəni-estetik hadisədir. Kitabda onun təşəkkül prosesi, etimoloji mənası, fəlsəfi-irfani əsasları, təsəvvüflə bağları, inkişaf mərhələləri (aşiqlik, ilahi eşq ideyası), sufi-dərviş sisteminin təşəkkülü (IX-XI əsrlər); ideyanın təkkələrdən çıxaraq xalq arasında yayılmaları (XIII-XV əsrlər), musiqiçi-folklor sənətkarlığı (XV-XVI əsrlər), ozan-aşıq keçidləri (erkən orta çağdan XVI əsrin ortalarına qədər), habelə, fəaliyyət istiqamətləri (etnoqrafik, hərbi-siyasi və təkkə-təriqət mərasimləri) təhlil edilmişdir.

Aşıq sənətinin mövcud olduğu *aşıq mühitlərinə* də birinci cilddə geniş yer verilmişdir. Onun tarixi təşəkkülündən sonra Qafqaz, İran və Anadoludakı inkişaf istiqamətləri və Azərbaycan aşıq mühitinin regionları (Kəlbəcər, Borçalı, Göyçə, Dərələyəz, İrəvan, Çıldır, Şirvan, Dərbənd, Qarabağ, Naxçıvan, Qaradağ-Təbriz, Urmiya, Zəncan, Xorasan, Savə, Qaşqay) və sənətkarları haqqında əhatəli elmi məlumat verilmişdir.

Ustad aşıqlar kimi Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Abdalgülablı Valeh, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli, Aşıq Hüseyn Bozalqanlı və Molla Cüməyə portret-oçerklər həsr edilmişdir. Eləcə də *«Koroğlu» və Qaçaq dastanları* ilə bağlı informasiya-bilgilər də geniş və əhatəlidir. Kitabda dastanların təşəkkülü, tədqiqi tarixi, onların səciyyəvi xüsusiyyətləri, tədqiq və nəşri məsələləri də ətraflı işıqlandırılmışdır.

Hesab edirik ki, çoxcildlik Azərbaycan ədəbiyyatı tarixinin şifahi xalq ədəbiyyatına aid olan birinci cildi elmi-pedaqoji ictimaiyyət tərəfindən maraqla qarşılanacaq, yeni ədəbi dövrləşdirmə konsepsiyasının praktik nümunəsi kimi əhəmiyyətli olacaqdır. Bu cild AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illiyinə qiymətli töhfədir.

## ƏDƏBİYYAT

1. Həbibbəyli İsa. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatı. Poetika.İzm. Bakı, "Elm və təhsil", 2017, № 3.
2. Azərbaycan ədəbiyyatı tarixi. 7 cilddə, I cild, Bakı, "Elm", 2004.
3. Azərbaycan ədəbiyyatı tarixi. 7 cilddə, II cild, Bakı, "Elm", 2007.
4. Azərbaycan ədəbiyyatı tarixi. 7 cilddə, III cild, Bakı, "Elm", 2009.
5. Azərbaycan ədəbiyyatı tarixi. 7 cilddə, IV cild, Bakı, "Elm" 2011.

6. Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər, Bakı, "Elm", 2002.
7. Əhmədov Bədirxan. XX əsr Azərbaycan ədəbiyyatı, 3 cilddə, I cild, Bakı, "Elm və təhsil", 2011, II cild Bakı, "Apastroff", 2010.
8. Şərifzadə Baloğlan. Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər) Bakı, "Adiloğlu", 2003.
9. Əlibəyzadə Elməddin. Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər) Bakı, "Qarabağ", 2009.
10. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə. "Bakı Universiteti", 2007.
11. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə. Bakı, "Elm və təhsil", 2016.
12. Osmanlı Vəli. Türk xalqları ədəbiyyatının ortaq başlanğıcı (VI-X əsrlər), Türkiyə, Ərzurum, 1996.
13. Bayramoğlu Alxan. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, "Elm və təhsil", 2013.
14. Salamoğlu Təyyar. Müasir Azərbaycan ədəbiyyatı məsələlərinə dair. Bakı, BQU, 2012.
15. Ağayeva M. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, "Elm", 2013
16. Qəhrəmanlı Nazif. Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf və dövrləşdirmə problemləri. Bakı, "Qartal", 1997.
17. Cəfərov Nizami. Seçilmiş əsərləri. 5 cilddə, II cild. Bakı, "Elm", 2007.
18. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, I cild. Bakı, "Elm", 2018.

## THE GLANCE TO THE "HISTORY OF THE AZERBAIJANI LITERATURE"

*Summary*

In the article it is commented on the article named "Scientific classification on periodization of history of the Azerbaijani literature" by Isa Habibbayli. It is also summarized scientific-theoretical thoughts of scientists engaged in research on this problem. In the article the author pays attention to scientific principles and basis of periodization model by Isa Habibbayli. The first volume of ten-volume book "History of the Azerbaijani literature" is put it shortly.

## ВЗГЛЯД НА «ИСТОРИЮ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ»

*Резюме*

В статье высказывается мнение относительно статьи Исы Габиббейли «Научная классификация периодизации истории азербайджанской литературы», обобщены научно-теоретические взгляды учёных, занимавшихся исследованиями проблем в этой области. Внимание уделялось основным принципам и модели периодизации научной концепции Исы Габиббейли. Приведены выводы о первом томе 10-томной «Истории азербайджанской литературы».